

*Musa Aslanxanlı*

## Görüşlərə...

Görüşlərə gedən,
görüşlərə gələn
diplomat qardaş,
yenə siz...
gözəl istirahət evlərində
dincələrsiniz.
Mənimsə yanır sinəm
İşğal altında qalan kəndimizdə -
qapımızda atam əkən tutun
kölgəsinə həsrətəm.
Sözlərin torpağa
səpilən dənmi?!
Çıxdığın neçə-neçə
yüksək kürsülər var, qardaşım,
oradan Ziyaqət dağımı
görə bilərsənmi?
Görüşlərə gedən,
görüşlərə gələn
diplomat qardaş,
əllərini sıxa bilmədiyimin
səbəbi var:
Axı əllərimin içi
yurdumuzda
qalan əncir ağacının
gövdəsinə toxunmaqçün
gecə-gündüz sızıldar.
Diplomat qardaş, sən Allah,
məni fırlama soluna-sağına,
məni inandırmaqmı istəyirsən
üstündən gələn ətrin də
kəndimizin iydə ətrini xatırlatdığına...

## Qorxan qaranlıqlar

Gecə yuxusuzluğumdan
keçər həsrətin.
Üstümdə gümüşü ulduzlarla
dolu göy üzü -
Sevdalı illərimin işıqlanan
bənizi...
Səsini içinə çəkmiş
Qaranlıqlar belə
Qorxa-qorxa baxar
Ulduzların nağıl olmuş düzümünə.
Qaranlıqların
dili də söz tutmaz,
bir kəlmə söz desin
qayğılanan yer üzünə,
nağıllaşan göy üzünə.

## Bir sevgi

Vaxt o vaxt, keçirdik məktəb yolundan,
Bir sevgi durmuşdu yol kənarında.
Tən gəlib azacıq ayaq saxladım,
O, sehirli səsim, sirli bayatım...
Azacıq saxladıq ayağımızı...
Bilmədim ta necə, danışım, dinim,
O bir an ömrümə yazıldı mənim...
Yazıldı, yaz oldu könül varımda
Bir sevgi durmuşdu yol kənarında.

Mənə qoşulsaydı, yaz səhərləri
Qışın nəfəsindən bacarmazdı ki.
Köksümə sıxardım kəndi, şəhəri,
Dolanıb sehrini alaydım təki.
Elə o sehirdə qalaydım təki.
Ayrıldıq, eləcə üzüm olmadı
Nə şəhər yanında, nə kənd yanında,
Bir sevgi durmuşdu yol kənarında.

Ürəyim uçundu, danışmadı, yox,
Ucunda dayandı barmaqlarımın...
Boylandım səsinə bulaqlarımın.
Bir az bəxtəvərlik, həyəcan bir az...
Gənclik illərindən nigaran bir az,
İtirmək acısı, tapmaq ümidi -
Onlardan nə qalıb qızıl qanımda?
Bir sevgi durmuşdu yol kənarında.

O neçə il idi, neçə ay idi
İşığı göylərdən gələn pay idi.
Duyğu-könüllərdən keçən bir duyğu...
Ürəyin işıqlı, ürəyin dolu,
Xatırla, xatırla, de, yadındamı
Səndə arınmışdın bulaq suyu tək...
İndi o saflıqdan nə var canında,
Bir sevgi durmuşdu yol kənarında.

Açılar, açılmaz o sirr? - bilmirəm,
Bəlkə də peşmandı tək qaldığından,
Bəlkə də hardasa yanıldığından...
Bəlkə də bizimlə gəlir, bilmirəm,
Ya uğur deyirmiş yolçulara o,
Bəzən xoşbəxt-xoşbəxt onu uğurtək
Gəzirəm ömrümün bəhrə-barında...
Bir sevgi durmuşdu yol kənarında.

